*Məmmədzadə Könül Əhəd qızı, doktorant,*
*Bakı Slavyan Universiteti,*
*Email: konul.kesa@yahoo.com*

# İQTİSADİYYAT SAHƏSİ İLƏ LİNQVİSTİKANI BİRLƏŞDİRƏN LİNQVİSTİK TERMİNLƏR

Xüsusi adlar həm Azərbaycan, həm də ingilis dillərində mühüm bölmələrdən biridir. Mövzunun aktuallığına səbəb hər iki dillərdə xüsusi adlardan götürülmüş terminlərin verilməsidir. Həmçinin, müqayisə hər iki dillərdə qarşılıqlı olaraq aparılmışdır. Hər iki dillərdə tərtib edilmiş nəşrlərdən, lüğətlərdən istifadə edilmişdir. Verilmiş nümunələr iqtisadiyyat və maliyyə sahəsini əhatə edir. Bu məqalə linqvistikanın qolu olan terminologiyanın iqtisadiyyat sahəsinə dil faktoru kimi güclü təsir etməsini sübut etmiş olur. Qeyd edilmiş terminlərdə onomastikanın müxtəlif növlərindən istifadə edilmişdir. Azərbaycan və ingilis dillərində ayrı–ayrılıqda iqtisadiyyat və maliyyə sahəsinə aid aşağıdakı terminlər tədqiqata cəlb edilmişdir. Amerika fond birjası – ABŞ–ın Nyu–York fond birjasından sonra ikinci böyük fond birjasıdır [1, s. 19].

Beyker planı – 1985–ci ildə ABŞ–ın Reyqan administrasiyasının xəzinə naziri Beykerin üçüncü dünya ölkələrinin xarici borc problemini həll etmək üçün həyata keçirdiyi plandır.

Bredi planı – 1980–ci ildə ABŞ–ın Corc Buş administrasiyasının maliyyə siyasəti üzrə nümayəndəsi Nikolas Bredi tərəfindən üçüncü dünya ölkələrinin xarici borc probleminin həlli istiqamətində həyata keçirilən strateji plandır.

Çikaqo opsion birjası – 1973–cü ildə Çikaqoda yaradılan səhmlərlə opsion sövdələşmələri üzrə ixtisaslaşmış birjadır.

Dou–Consun sənaye indeksi – 1884–cü ildə Çarlz Dou Consun Amerika fond bazarında qiymətin aparıcı indeksini və birjanın vəziyyətini müəyyənləşdirən sənaye indeksidir .

Heller büdcəsi – ABŞ–da həyat səviyyəsini müəyyən edən 4 nəfərdən ibarət orta statistik ailənin mövcud bazar qiymətlərinə uyğun istehlak büdcəsidir.

Holland hərracı – Hollandiyada yüksək qiymətlə başlanan və iştirakçı tərəfindən qəbul olunana qədər aşağı salınan hərrac növüdür.

Kern qrupu – 1986–cı ildə Avstraliyanın Kern şəhərində bir sıra dövlətlər tərəfindən təsis edilən qrupdur.

Kiu planı – Pensiya təminatları üçün Kiunun irəli sürdüyü kiçik firmalar və fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərin pensiya planıdır .

Koas teoremi – Amerikalı Ronald Koasın irəli sürdüyü tərəflərin heç bir xərc çəkmədən kənar problemləri həll edərək sərvətləri bölüşdürməsi teoremidir.

Laro hesabı – Almaniyalı iqtisadçı Laronun irəli sürdüyü bankın öz korrespondent bankına açdığı hesabdır.

Laspeyres indeksi – Almaniyalı iqtisadçı Etienni Laspeyresin irəli sürdüyü cari ilin qiymətləri ilə dəyərinin, bazis ilinin qiymətləri ilə dəyərinə nisbətini göstərən qiymət indeksidir.

Leontyev paradoksu – Vasili Leontyevin irəli sürdüyü ABŞ-ın idxal və ixrac strukturunu öyrəndikdən sonra əldə etdiyi nəticələrdir.

Lima bəyannaməsi – 1977–ci ildə Lima şəhərində ali audit institutlarının iştirakı ilə qəbul olunan bəyannamədir.

Marşall planı – ABŞ–ın dövlət katibi Corc Marşall tərəfindən hazırlanan II Dünya müharibəsindən sonra Avropa ölkələrinin bərpasına Amerikanın kömək proqramını nəzərdə tutan plandır.

Nostro hesabı – Kredit təşkilatının korrespondent bankda olan və qarşılıqlı ödənişlərin göstərildiyi hesabdır.

Nyu–York fond birjası – ABŞ–ın Nyu–York şəhərində yerləşən və ən çox kapital yatırımı qoyulan dünyanın ən böyük səhm birjasıdır.

Paaşe indeksi – Amerikalı Herman Paaşenin irəli sürdüyü müəyyən dövr ərzində satılmış əmtəələrin faktiki qiyməti ilə bazis ilinin qiymətinin müqayisəsini ifadə edən qiymət indeksidir.

Paris klubu – Paris şəhərində toplantıda xarici borclarını ödəməkdə çətinlik çəkən ölkələrin başqa dövlətlərdən aldıqları borcların restrukturizasiyasına aid görüşlərini təşkil edir.

Paulo – XIX əsrə qədər İtaliyada Paulo Luçio Anafestonun tədavülə buraxdığı gümüş monetdir.

Şarp nisbəti – Amerikalı Villiyam Şarp tərəfindən müəyyən olunan riski nəzərə almaqla portfel fəaliyyətini əks edən nisbətdir.

Vaqner qanunu – 1935–ci ildə senator Robert Vaqnerin ABŞ Konqresi tərəfindən qəbul edilmiş əmək münasibətlərinin tənzimlənməsi qanunudur.

Veblen paradoksu – Amerikan iqtisadçısı Torsteyn Bunde Veblenin kəşf etdiyi əmtəənin qiyməti ilə ona olan tələbin səviyyəsi arasında ziddiyyətdir.

Aitken estimator (Aytken qiymətləndirməsi) – Aleksandr Aytkenintəsvir etdiyi statistikada ən kiçik kvadratlarla bir reqressiya modelindəki qalıqlar arasında müəyyən dərəcədə korrelyasiya olduğu zaman xətti bir reqressiya modelində bilinməyən parametrləri qiymətləndirmək üçün texnikadır.

Allais paradox (Allais paradoksu) – Mauris Allaisin kəşf etdiyi gözlənilən fayda nəzəriyyəsinin proqnozları ilə həqiqi müşahidə edilmiş seçimlərin uyğunsuzluğu nəzəriyyəsidir.

Basel agreement (Bazel razılaşmaları) – İsveçrənin Bazel şəhərində Bazel Bank Nəzarəti Komitəsi tərəfindən yaradılmışdır.

Baumol effect (Baumol effekti) – Amerikalı Vilyam Baumol və Vilyam Bovenin təsvir etdiyi yüksək əmək məhsuldarlığı olan iş yerlərində artan maaşlara cavab olaraq, əmək məhsuldarlığı az olan iş yerlərində maaşların artmasıdır.

Bayes theorem (Bayes teoremi) – İngilis riyaziyyatçı Tomas Bayesin əvvəlki biliklərə əsaslanaraq hadisənin baş vermə ehtimalının təsviridir.

Bergson–Samuelson social welfare function (Berqson–Samuelson sosial rifahın tənzimlənməsi) – Abram Berqson tərəfindən yaradılan iqtisadiyyatda sosial rifahın tənzimlənməsi qanunudur.

Beveridhe report (Beveridge məruzəsi) – İngiltərəli iqtisadçı Vilyam Bevericin İngiltərədə sosial dövlətin qurulmasına aid hökumət hesabatıdır.

Borda count (Borda üsulu) – Yan Çarlz Bordanın Fransa Elmlər Akademiyasına keçirilən seçkilərdə yaratdığı seçki üsuludur.

Brady plan (Bredi planı) – Nikolas Bredinin Meksikanın xarici borcunun yenidən hazırlandığı planıdır.

Brandt report (Brandt məruzəsi) – Alman kansler Villi Brandtın sədrliyi ilə Müstəqil Komissiyanın beynəlxalq inkişaf məsələlərini nəzərdən keçirən hesabatdır.

Bretton Woods system (Bretton Vuds pul idarəetmə sistemi) – ABŞ, Kanada, Qərbi Avropa ölkələri, Avstraliya və Yaponiya arasında ticarət və maliyyə münasibətlərini nizamlayan sistemdir.

Cambridge equation (Kembric tənliyi) – Kəmiyyət nəzəriyyələrini, istehsal olunan məhsulların miqdarını, qiymət səviyyəsini ifadə edən klassik pul miqdarı nəzəriyyəsidir.

Clayton act (Kleyton qanunu) – Henri Kleytonun adı ilə bağlı ABŞ–da rəqabətə davamlı tətbiqetmələrin qarşısını almağa hesablanmış aktdır.

Coase theorem (Kouz teoremi) – Ronald Kouzun "Sosial xərclər problemi" adlı məqaləsində verilmiş nəzəriyyəyə əsaslanır.

Gresham's law (Qreşam qanunu) – Qreşam kollecinin professoru Robert Hukun icad etdiyi “Pis pulların yaxşı pulları sıxışdırması” qanunudur.

Johansen's approach (Cohansen yanaşması) – Danimarkalı Soren Cohansenin kəşf etdiyi kointeqrasiya əlaqəsidir.

Keynesian economics (Keyneziya iqtisadiyyatı) – İqtisadçı Con Maynard Keynezin iqtisadi məhsulun tələbdən güclü şəkildə təsirləndiyinə dair makroiqtisadi nəzəriyyədir.

Leontief paradox (Leontev paradoksu) – Amerikalı Vasili Vasileviç Leontevin işçi başına görə yüksək kapitala sahib olan ölkənin ixracatda idxaldan daha az kapital / əmək nisbətinə sahib olması paradoksudur.

Marshall plan (Marşal planı) – Corc MarşalınABŞ–ın Avropa iqtisadiyyatına yardımını nəzərdə tutan proqramıdır.

Rorschach test (Rorşax testi) – İsveçrəli psixoloq Herman Rorşaxın psixoloqlar tərəfindən fərdin şəxsi xarakteristikalarını və emosional fəaliyyətlərini tədqiq edən psixoloji testidir .

Say’s law (Sey qanunu) – Fransız Con Baptist Seyin “Təklif öz tələbini yaradır” arqumentinə əsaslanan qanunudur.

Schlieffen planı (Şliffen planı) – Fransalı general Alfred fon Şliffenin Almaniyanın Fransa və Rusiyaya qarşı apardığı müharibə siyasətidir.

Turing test (Türinq testi) – İngilis riyaziyyatçı Alan Türinqin başçılığı ilə ixtira edilmiş kompüter sisteminin insan beyni ilə müqayisəsinin aparılması testidir.

US deficit (ABŞ defisiti) – ABŞ hökumətində 1980–1990–cı illərdə davam edən defisitdir.

Wagner act (Vaqner aktı) – ABŞ–da Adolf Vaqnerin işçilərin həmkarlar ittifaqlarını təşkil etmələri, üzv olmaları və işə götürənlərlə kollektiv bazarlıq etmələri haqqında aktıdır.

Azərbaycan dilində verilmiş terminlər alınma, ingilis dilində isə verilmiş terminlər həm milli, həm də alınmadır. Azərbaycan dilində terminlər sadə, II növ təyini söz birləşməsi, abreviatura, ingilis dilində isə terminlər xüsusi isim+isim formasındadırlar. Amerika fond birjası, Nyu–York fond birjası, Benilyüks, Dou nəzəriyyəsi, Heller büdcəsi, Marşal planı, Paulo və digər xüsusi adlardan düzəlmiş beynəlxalq terminlərə Azərbaycan və ingilis dillərinin terminologiyasında rast gəlinir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Mövsümov C. İqtisadi lüğət. Bakı: 2012. 484 s.
2. Paşayeva Ş.R. Azərbaycan dilində iqtisadi nəzəriyyə terminləri. Bakı: Təhsil, 2005. 164 s.
3. Black J.A. Dictionary of Economics (3 ed.) / Black J., Hashimzade N., Myles G. Oxford, Oxford University Press, 2009. 162 p.